Azərbaycan.- 2021.- 24 aprel. S. 4.

# Minsk qrupu yenidən "turist səfərləri"ni davam etdirmək fikrindədir

**ATƏT - in Minsk qrupunun həmsədrləri fəaliyyətdə olduqları uzun illər ərzində Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında tənzimlənməsi, ədalətin bərpa edilməsi, təcavüzkarın təcavüzkar kimi qiymətləndirilməsi sayəsində heç bir əməli iş görə bilmədilər.**

Əslində onlar münaqişəni dondurmağa, baş aldatmağa, erməni faşistlərinə dəstək verməyə çalışırdılar. BMT Təhlükəsizlik Şurası, İslam Əməkdaşlıq Konfransı, Qoşulmama Hərəkatı və bir çox beynəlxalq təşkilatlar tərəfindən Ermənistanın təcavüzkar əməllərini təsdiq edən sənədlər qəbul olunmasına baxmayaraq, Minsk qrupu susdu, faktlara obyektiv qiymət vermədi.

Qrupun bəzi üzvlərinin bildirdiyi kimi, onlar münaqişəni həll etməklə deyil, günlərini rahat mehmanxanalarda keçirməklə, gəzməklə, gün keçirməklə məşğul oldular. Məhz buna görə də Ermənistan rəhbərləri, siyasətçiləri, hərbçiləri daha da quduzlaşdılar, vaxtaşırı sərhədlərdə təxribat törətdilər, günahsız insanları qətlə yetirdilər, atəşkəsi pozaraq yeni əraziləri işğal etmək həvəsinə düşdülər. Bu müddətdə yüzlərlə dinc sakinə xəsarətlər yetirildi, yaşlılar, uşaqlar öldürüldü, mülkü obyektlərə, təsərrüfatlara ciddi ziyan dəydi.

Bu barədə Minsk qrupunun həmsədrləri dəfələrlə məlumatlandırılsalar da, hadisələrə heç bir ciddi münasibət bildirilmədi. Hətta Dağlıq Qarabağa xarici vətəndaşların məskunlaşdırılmasına, ərazidə terrorçu birləşmələrin yetişdirilməsinə, 2016, 2018-ci illərdə sərhədlərimizdə törədilən təxribatlara, insan itkilərinə də ciddi reaksiya verilmədi. Ermənistanın hərbi-siyasi dairələrinin "biz tanklarımızla Bakıya gedib çıxacağıq, yeni ərazilər işğal etməyə hazırıq" və sair bəyanatları qulaqardına vuruldu. Azərbaycan Prezidenti cənab İlham Əliyevin beynəlxalq təşkilatların mötəbər tribunalarından Ermənistanın təcavüzkar əməlləri haqqında səsləndirdiyi bəyanatlara, regionda sülhün, sabitliyin və əməkdaşlığın möhkəmləndirilməsi barədə fikirlərinə əhəmiyyət verilmədi.

Minsk qrupu bütün hallarda müşahidəçi rolunu oynadı, ermənipərəst mövqeyi ilə seçildi, təcavüzkara dəstək verdi, həqiqətləri ört-basdır etdi. O öz hörmət və etibarını tamamilə itirdi, səlahiyyətsiz, haqqı yox, nahaqqı, təcavüzkarı müdafiə edən bir quruma çevrildi. Xalqımız, sülhsevər bəşəriyyət bunu görür, hiss edir və qiymətləndirirdi. Ancaq dövlətimizin başçısının, insanlarımızın sülhsevərliyi, humanizmi, müharibəyə, qana-qadaya nifrəti, beynəlxalq təşkilatlara ümid və inamı gözləməyi, səbirli olmağı tələb edirdi.

27 sentyabr 2020-ci ildə səbir artıq tükəndi, vasitəçilərə inam itdi, humanizm köməksiz qaldı. Yeni torpaqlar işğal etmək məqsədilə hücuma keçən erməni faşistləri güclü, əyilməz, mətanətli Azərbaycan Ordusu ilə qarşılaşdılar və elə ilk andan əyildilər, sındılar, geri çəkilməyə məcbur oldular.

Onlar bunu gözləmirdilər, öz havadarlarına və dünyada mif yaradan təbliğatlarına, saxta vətənpərvərliklərinə, əsgər, zabitlərinə arxayın idilər. Ancaq Azərbaycan Prezidentinin, Ali Baş Komandan İlham Əliyevin siyasəti, dəmir yumruğu, müzəffər ordumuzun qüdrəti, xalqımızın birliyi qarşısında polad maneələr belə gücsüz idi, heç bir qüvvə işğalçıya tükənməz nifrətimizin qarşısını ala bilməzdi.

44 günlük müharibə dövründə məğlubiyyətə düçar olduqlarını bilən ermənilər dəfələrlə hərb qanunlarını, beynəlxalq hüquq normalarını pozdular. Döyüş zonasında olmayan şəhər və kəndlərimizi raket atəşinə tutdular, Gəncədə, Bərdədə, Tərtərdə, Ağcabədidə, Goranboyda və digər ərazilərdə insanların ölümü ilə nəticələnən qətliamlar törətdilər. Yüzlərlə mülki obyektlər, yaşayış evləri, məktəblər, xəstəxanalar, uşaq bağçaları, muzeylər, qəbiristanlıqlar məhv edildi. Erməni faşistləri bütün çirkinliklərdən istifadə etdilər, hətta onlar böyük dağıdıcı gücə malik "İsgəndər M" raketi ilə müqəddəs Şuşa şəhərini vurdular.

Belə çətin, ağrılı bir vəziyyətdə ATƏT-in Minsk qrupu yenə də ortaya obyektiv mövqe qoymadı. Əksinə, Fransa Prezidenti Makron, bu ölkənin parlamenti, bəzi siyasi xadimləri birmənalı olaraq erməni təcavüzkarlarına dəstək verdilər, onlara yardım göstərdilər, Azərbaycana qarşı hədə dolu bəyanatlar səsləndirdilər. Müharibə günlərində Minsk qrupu erməni vandalları tərəfindən məhv edilən mülki əhalini, şəhər və kəndlərimizi, başımıza yağdırılan raketləri, top mərmilərini görmək, Ermənistanı bu əməllərindən çəkindirmək əvəzinə, əksinə onun hərəkətlərinə bəraət qazandırmaq yolunu tutdu, bu vəhşiliklərə haqq qazandırdı.

Çox gülməlidir. Müharibə qurtarandan, torpaqlar azad ediləndən, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələri öz iradəmizlə, gücümüzlə həyata keçiriləndən, münaqişə aradan qaldırılandan sonra və heç bir vasitəçiliyə lüzum olmadığı halda bu gün ATƏT-in Minsk qrupunun həmsədrləri, xüsusilə də Fransa və ABŞ bəyanatlar verərək yenidən Azərbaycan-Ermənistan münasibətlərini qaydaya salmaq, münaqişəni həll etmək üçün səylər göstərir, uydurma, əsası olmayan təkliflər irəli sürürlər.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev



bu günlərdə bir daha bildirmişdir: "Minsk şəhəri ilə bağlı bir format artıq keçmişdə qalıb. Minsk qrupu mövcuddur, lakin münaqişə nizamlanıb. Minsk qrupunun nə ilə məşğul olacağı bizə hələ məlum deyil".

Dövlətimizin başçısı onu da qeyd edib ki, "Biz Ermənistanla münaqişəni demək olar 30 il müddətində sülh yolu ilə nizamlamaq istədik. Danışıqlar prosesinə sadiq olmağımız da bizim niyyətimizə dəlalət edir. Buna görə də münaqişənin hərbi-siyasi yolla nizamlanmasında təqsirkar, əlbəttə, işğalçı ölkədir. Əgər onlar müharibədən əvvəl və hətta müharibə dövründə də bizim ərazilərimizi tərk etmək barədə mənim çağırışlarıma, israrlı tələblərimə qulaq assaydılar, müharibənin nəticələri Ermənistan üçün bu dərəcədə ağrılı olmazdı".

Bunu, sözsüz ki, ATƏT-in Minsk qrupu da bilməli və təcavüzkar vaxtında yerində oturdulmalı idi. Belə olmadığı halda münaqişə həll ediləndən sonra əl-ayağa düşmək yersizdir, qəbuledilməzdir. Əslində, yeni cəhdlər iki dövlət arasında münasibətlərin yaxşılaşdırılmasına, azərbaycanlılarla ermənilərin normal şəraitdə yaşamasına, düşmənçiliyin aradan qaldırılmasına deyil, daha çox bu ölkələri təsir altına salmağa, millətçiləri qızışdırmağa, erməni təcavüzkarlarına yeni nəfəs verməyə, onları çaşdıraraq münaqişələr yaratmağa hesablanmışdır.

Bəzi dövlətlər hələ də həqiqəti dərk etmirlər və bilmirlər ki, ermənilər əsrlər boyu tarixlə mifologiyanı qarışıq salmışlar, özlərini dünyaya ali irq, ən qədim tarixə və dinə malik olan, hamıdan güclü və bilikli xalq kimi təqdim etmişlər. Erməni xalqı da öz başbilənlərinin çirkin əməllərinə, fikirlərinə uyub uzun illər bu yalanların və miflərin girovuna çevrilmişdir. Çox təəssüflər olsun ki, dünyanın bir çox ölkələri, siyasətçiləri də ermənilərin bu yalanlarına inanırlar.

Ancaq tarix erməniləri əzilən, məzlum xalq kimi yox, əslində cəllad, təcavüzkar, terrorçu bir millət kimi təqdim edir. Ermənistan beynəlxalq hüququn dövlətlərin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq sərhədlərin toxunulmazlığı prinsiplərinin əleyhinə gedərək uzun illər ərzində Azərbaycana qarşı işğalçılıq siyasəti yeritmiş, ərazilərimizdə kütləvi qırğınlar, soyqırımları törətmişdir. Onların torpaqlarımızı zəbt etməsi, qonşu dövlətlərə - Türkiyəyə, Gürcüstana qarşı torpaq iddiasında olması, dünyada bir çox terror aktları törətməsi buna əyani sübutdur.

Belə olan halda bəzi dünya dövlətlərinin təcavüzkar Ermənistanı müdafiə etməsi, erməni lobbisinin qurbanına çevrilməsi, faktlara deyil, yalanlara əsaslanması, mifik xəyallara inanması təəssüf doğurur. Minsk qrupu da bu təsir altındadır.

Onlar hələ də başa düşmürlər ki, artıq məsələ həll olunub, 10 noyabr 2020-ci ildə Azərbaycan, Rusiya, Ermənistan arasında üçtərəfli Bəyanat imzalanıb və torpaqlar işğaldan azad edilibdir. Əgər bir çox vacib məsələlər həll edilmişdirsə və qarşıya qoyulan vəzifələr mərhələli şəkildə həll edilirsə, əlavə vasitəçi kimə lazımdır?

Digər tərəfdən, həmsədr ölkələr 27 illik bir dövrdə ədalətin bərpa edilməsi, Azərbaycan torpaqlarının işğaldan azad olunması istiqamətində elə bir əhəmiyyətli tədbir həyata keçirib obyektiv mövqe ortaya qoymayıblarsa, bundan sonra onların hansı üzlə vasitəçilik etmək haqları vardır.

Vasitəçilər, görünür, yaxşı əməkhaqqından, turist səfərindən, istirahət etməkdən doymayıblar. Onlar məsələləri daha da böyütməkdən, çətinləşdirməkdən, yalan vədlərlə, saxta gedişlərlə xalqları, ölkələri aldatmaqdan deyəsən əl çəkmək fikrində deyillər.

Ancaq artıq o vaxt deyil, Azərbaycan Prezidenti cənab İlham Əliyevin dediyi kimi, "qələbə, dövr yeni reallıqlar yaratmışdır və əlbəttə ki, Ermənistan artıq bu reallıqların bir çoxu ilə razılaşmışdır".

Sözsüz ki, ATƏT-in Minsk qrupunun həmsədr ölkələri də bu reallıqları qəbul etməli və ərazi bütövlüyünün təmin edilməsində, milli mənafelərin qorunmasında, beynəlxalq normaların həyata keçirilməsində qalib Azərbaycanla razılaşmalıdırlar. Əks təqdirdə dövlətimizin rəhbərinin bildirdiyi kimi "dəmir yumruq öz yerindədir və Azərbaycan xalqı öz mübarizəsində haqlıdır, yenilməzdir. İstənilən vaxtı hər bir düşmənə öz gücümüzü göstərməyə qadirik".

Azərbaycan xalqı Minsk qrupunun vasitəçiliyini qəbul etmir, ona inanmır və bundan sonra onun fəaliyyət göstərməsinin əleyhinədir. Çünki buna heç bir əsas yoxdur. Həmsədr ölkələr də bunu bilməli və saxta, aldadıcı bəyanatlardan əl çəkməlidir.

***Tahir RZAYEV,***
***Milli Məclisin Aqrar siyasət komitəsinin sədri***